**Bütöv Azərbaycan.-**2024.-5 aprel.-№8.-S.7.

# V.İ.Lenin və S.Şaumyanın qanlı planı - 31 Mart soyqırımı

**Yeganə Qəhrəmanova**
ADPU-nun dosenti, filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan-Türk Xalqları Qardaşlığı ictimai birliyinin həmsədri

1918-ci ilin mart soyqırımları haqqında çox yazılmış, onun masştabı və tükürpədici nəticələri barədə çox məlumatlar verilmişsə də, öz amansızlığına və miqyasına görə bəşər tarixinin ən qanlı faciələrdən olan soyqırımla bağlı tədqiqatlar hələ də tamamlanmamışdır. Soyqırım V.İ.Leninin ideyası, Stepan Şaumyanın icrası ilə həyata keçirilmiş, bütün silahlar İran və Rusiyadan gətirilərək, Bakıdakı erməni kilsəsinin anbarında saxlanmış, qətliamçı dəstələr arasında bölüşdürülmüşdü.

Əslində soyqırımın 3 paytaxt şəhərdə - Tiflis, Bakı və Təbrizdə baş verməsinin planlaşdırıldığı göstərilir. Lakin Şaumyan Tiflisdə planı icra edə bilmədiyindən Bakıya qayıtmış, Təbrizdə də qətliam törətmək mümükün olmadığından Urmiya əsas mərkəz kimi götürülmüşdü.

Beləliklə, mart ayının 31-dən aprelin 3-ə qədər ermənilər Bakıda və Azərbaycanın müxtəlif bölgələrində uşaq, qoca, qadın demədən on minlərlə insanı qılıncdan, süngüdən keçirmiş, diri-diri yandırmış, qocaların, qadınların gözlərini çıxarıb divarlara mıxlamış, qundaqdakı körpələri itlərə atıb parçalatmışdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişdilər. Minlərlə tarixi sənədləri, qədim əlyazmaları, dəyərli maddi-mənəvi sərvətləri daşıyıb aparmışdılar.

Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə də xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdi.

Bakıda bir həftə ərzində əksəriyyətini dinc sakinlər və müsəlmanlar təşkil edən minlərlə əhali vəhşicəsinə qətlə yetirilmişdi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdilər. Cəsədlər yanan binalara atılır, quyulara, dənizə tökülürdü. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Lakin İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanmış və dəfn olunmuşdu. Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur – yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər…".

Araşdırmalar göstərir ki, 1918-ci il 31 Mart soyqırımı qurbanlaının sayı barədə dəqiq fikir yoxdur. Belə ki, Britaniya briqada generalı R.Qortonun Londona göndərdiyi 1918-ci il 8 dekabr tarixli sənəddə 20 min, Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox müsəlmanın soyqırıma məruz qaldığı göstərilir. Hətta minlərə azərbaycanlının meyitlərinin Xəzərə atıldığı, yüzlərlə insanın Xəzər adalarına aparılaraq güllələndiyi barədə məlumatlar vardır. Yəqin ki, bu da son rəqəmlər deyil. Çünki bu gün çoxsaylı arxiv sənədləri, soyqırı faktını təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır, azərbaycanlılara qarşı törədilən qanlı cinayətlərin miqyası ilə bağlı dəhşətli rəqəmlər üzə çıxarılır. Həmin sənədlərdən aydın olur ki, təkcə Bakıda 45 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdü. Şamaxıda mart-aprel aylarında öldürülənlərin sayının bəzi məlumatlarda 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Daşnak-bolşevik qüvvələri 1918-ci ilin mart-aprel aylarında Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, Zəngəzurda 115, Şamaxıda 80, Quba qəzasında 122, İrəvan Quberniyasında 211, Qarabağda 157 kəndi bütün məscidləri, məktəbləri, qədim memarlıq abidləri ilə birlikdə yandırıb külə döndərmiş, əhalisini qırmış və didərgin salmışdılar. Təkcə Qubanın özündə Hamazaspın dəstəsi 105 evi yandırmışdı. Bəzi ərazilərdə içməli su quyularına zəhərli məhlullar tökmüş, insanları kütləvi şəkildə zəhərləyib öldürmüşdülər.

Ermənilər daxildə münaqişə yaratmaq məqsədilə Qubanın yəhudi məhəllələrində evlərə girir, sakinləri öldürür, həmin evlərdən atəş yağdırırdılar ki, guya yəhudilər azərbaycanlıları güllələyirlər. Azərbaycanda yaşayan, etnik kimliyindən asılı olmayaraq, müsəlman olan hər bir kəs qətlə yetirilirdi. Evlərə daxil olan ermənilər "Quran" və ya hər hansı islam elementi görən kimi ailələri qanına qəltan edirdilər. Buna görə yüzlərlə ailə islama aid kitabları və əşyaları yaxınlıqdakı qəbristanlıqda basdırırdılar ki, sağ qala bilsinlər. Öldürülənlər arasında talış, kürd, tat, ləzgi, avar, padarlarla yanaşı, yəhudi, rus, polyak və almanlar da var idi. Hətta yüzdən çox erməni ailəsinin azərbaycanlıları evlərində gizlətdikləri üçün qətl edildiyi də məlumdur.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri

araşdırırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi komissiya yaradıldı. Martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü elan olundu. Bununla da tarixdə ilk dəfə azərbaycanlılara qarşı yürüdülən soyqırıma və XIX əsrdən başlayaraq torpaqlarımızın işğalı proseslərinə siyasi qiymət verilməsinə cəhd göstərildi. Hətta Topçubaşov özü ilə çox əhəmiyyətli tarixi sənədləri Paris konfransına aparmışdı. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işləri yarımçıq qoydu.

Həmin dəhşətli günlərin şahidi olmuş alman əsilli A.Y.Kluqe qeyd edirdi ki, ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, kəllə sümükləri deşilmiş, cinsiyyət orqanları doğranmışdı. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər. Ən dəhşətlisi də bu idi ki, ermənilər keşişlərin xeyir-duası ilə xaç altında yüzlərlə azərbaycanlının başını qurbanlıq qoyun kimi kəsmişdilər.

Bolşeviklərin həyata keçirdiyi təbliğat və repressiya nəticəsində bu qanlı hadisələrin "unudulmasına", əksər sənədlərin, qəzet yazılarının yox edilməsinə baxmayaraq, zaman öz sözünü dedi, 70 il sonra əsl həqiqətlə üzə çıxarılmağa başlandı.

Alim Z.Əliyev haqlı olaraq yazır ki, 31 Mart soyqırımına gələn yol hələ XVIII əsrin əvvəllərində I Pyotr zamanında Rusiyanın Qara dənizə və Aralıq yiyələnmək üçün hazırladığı planlardan başlamışdı. Kürəkçay, Gülüstan, Türkmənçay müqavilələrindən sonra ermənilərin Qafqaza böyük planlı köçürülmələri gələcəkdə bütün Zaqafqaziyanın qana boyanmasına şərait yaradırdı. Məhz həmin dövrdən ermənilərin sayı Azərbaycanda və Qarabağda kütləvi şəkildə artırılmağa başlanmışdı. Yerli əhali məcbiri şəkildə öz ev-eşiyindən çıxarılır, onların yerində ermənilər məskunlaşdırılırdı.

Bu proses XX əsrin əvvəllərində də davam etdirilirdi. Qafqaz cəbhəsində hərbi əməliyyatlar zonasından çox sayda erməni Cənubi Qafqaza gətirilmiş, onların çoxu azərbaycanlılara məxsus torpaqlara yerləşdirilmişdi. Z.Əliyev göstərir ki, erməni qaçqınlarına yardım üzrə Mərkəzi Komitəsinin fəxri sədri Yepiskop Mesrop Petroqrad şəhər başçısına 100 min Türkiyə ermənisini Qafqaz diyarında yerləşdirmək ümidində olduğunu yazırdı. Ermənilərin yerləşdirilməsi böyük şəhərlərdə münasibətləri kəskinləşdirdiyindən Bakı general-qubernatorunun təqdimatı ilə onların Bakı şəhərinə kütləvi yerləşdirilməsi qadağan edildi.

Alim fikrini davam etdirərək göstərir ki, "Baku" qəzeti "Kavkazskoe slovo" qəzetinə istinadən yazırdı ki, 1915-ci ilin əvvəllərində İranda rusların işğal etdikləri ərazilərdən köçürülən və sayı 100-120 min nəfər olan erməni, əsasən, Naxçıvan, Sürməli, Eçmiədzin, İrəvan, Aleksandropol və Yelizavetpolda yerləşdirilmişdi. 1915-ci ilin martında keçirilən Eçmiədzin kilsə qurultayında Türkiyə və İrandan köçürülərək Cənubi Qafqaza yerləşdirilən ermənilərin sayının 60 min nəfər olduğu vurğulanırdı. Təkcə 1915-ci ilin iyul ayında Qafqaz canişinin sərəncamına əsasən Cavanşir və Şuşa qəzalarına 24 min erməni yerləşdirildi. Bundan sonra ermənilərin Azərbaycan əraizlərində silahlı hücumları daha geniş miqyas almağa başladı.

1905-1907-ci illər hadisələri göstərdi ki, XX əsrin əvvəllərinədək Azərbaycan torpaqlarını "dinc" üsullarla zəbt edən erməni millətçiləri artıq rəsmi dairələrin dəstəyi ilə açıq silahlı təcavüzə keçirlər. Bununla belə, həmin vaxt milli ziyalıların başçılığı, milli burjuaziyanın dəstəyi ilə azərbaycanlılar erməni təcavüzünün qarşısını ala bilmişdilər. 1912-ci ildə Rusiya imperiyası Xarici İşlər Naziri S.D.Sazonov Nazirlər Kabinetindəki məruzəsində "Rusiyanın məqsədi, nəyin bahasına olursa-olsun, türklər, kürdlər və bizim tatarlar arasında səddi - Ermənistanı yaratmaqdır" söyləməklə ermənilərlə bağlı plan və məqsədlərini açıqlamışdı.

Tarixi sənəd və materiallar açıq-aydın göstərir ki, bu qanlı cinayətlərin məqsədi ermənilərin "Böyük Ermənistan" sərsəmləməsi olmuş, baş verənlər vahid mərkəzdən - Rusiyadan idarə olunmuşdu. Azərbaycanlıların 1905, 1906 və 1918-ci il soyqırımlarının ideya müəllifi V.İ.Lenin idi. Məhz Leninin tapşırığı ilə Osmanlı ərazilərində yaşayan beş min erməni silahlısı Bakıya dəvət edilmişdi. Beş min silah, iki zirehli qatar və bir hərbi gəmi ermənilərə Leninin əmri ilə verilmişdi. 1918-ci il mart soyqrımları zamanı ermənilərin etdikləri talanlardan sonra erməni-daşnak qatilləri ümumən 400 milyon qızıl pul ələ keçirmişdilər ki, bunun 100 milyonu Leninə, 80 milyon Şaumyana çatmış, qalan hissəsi bolşeviklər və ermənilər arasında bölünmüşdü. Ermənilər öldürülənlərin ağızlarındakı qızıl dişlərini sökmüş, təkcə Qarabağ və Naxçıvanda 10 mindən çox mal-qara ələ keçirmişdilər.

Rusiya hökumətinin "türklərin zülmü altında inləyən" ermənilərə "kömək etmək" məqsədi ilə verilmiş 29 dekabr 1917-ci il tarixli-dekreti də bu fikri sübut edir. V.İ.Leninin Şaumyana və onun ətrafında birləşmiş daşnaklar qrupuna belə bir tapşırığı var idi: "Azərbaycanlıları son nəfərinədək qırmaq, yaxud öz doğma yurd-yuvalarından didərgin salmaqla Xəzər dənizinin sahillərindən Türkiyə sərhədlərinədək ölkənin bütün ərazisini boşaltmaq".

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. Artıq uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı ilə soyqırım aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə

çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bu qanlı tarixi unutmamamq məqsədilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Müxtəlif ölkələrin, o cümlədən Rusiya, Ermənistanın Matandaran kilsəsinin, Gürcüstan, İran, Türkiyə, Amerika, Britaniya kimi ölkələrin, eləcə də AXC-nin Fövqəladə Təhqiqat Komissiyasının arxivində hələ də qalan çoxsaylı sənədlər, şahidlərin yaddaşlarda yaşayan ifadələri azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımın miqyası, qurbanlarının sayı və s. vacib məsələlər haqqında dəqiq məlumatların üzə çıxarılmasına imkan yaradır. Bu baxımdan hələ də çoxu öyrənilməmiş olan xarici arxiv sənədlərinin üzə çıxarılıb araşdırılması günümüzün ən vacib vəzifələrindəndir.